2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 14474 min ton yük, 93610 min nəfər sərnişin daşınmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 50980 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması 1,6 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,9 faiz artmışdır.